# BÖYÜK QƏLƏBƏNİN AÇARI

*(Əvvəli ötən saylarımızda)*

Torpaqlarımız işğal olunub, kəndlər, şəhərlər oda-alova qalanaraq viran qoyulub. İşğal edilmiş Laçın, Kəlbəcər kimi rayonların əraziləri əsasən meşə və dağlarla əhatə olunduğu üçün həm də partizan müharibəsi aparmaq baxımından kifayət qədər əlverişlidir. Amma aradan keçən bu otuz iki il ərzində düşmən arxasında partizan müharibəsi aparmaq üçün səlahiyyətli orqanlar tərəfindən heç bir təşəbbüs göstərilmədi. Neçə illər bundan əvvəl Xalq şairi Fikrət Qoca ekrana çıxıb ürək yanğısı ilə dedi ki, axı nə üçün bizdə partizan hərəkatı gerçəkləşmir? Ondan da bir müddət əvvəl tanınmış qələm sahibi Elbrus Şahmar şəhidlərə həsr etdiyi növbəti kitabında yazmışdı ki, müharibənin ilk illərində Şuşa ərazisində partizan hərəkatı başlamışdı lakin milli satqınlarımızın əli ilə bu hərəkatı elə beşiyindəcə boğdular. Biz bütün bu müəmmalı sualların cavabını tarixin ümidinə buraxmaqla qeyd etməliyik ki, alman faşistlərinə qarşı gedən amansız müharibədə ayrı-ayrı ölkələrdə partizan hərəkatı çox geniş vüsət almışdı.

Hətta Ukrayna bölgəsində partizanlar düşmən ərazisində az qala Zaqafqaziya respublikalarının ərazisini bərabər olan sahələrə nəzarət edirdi. Belorusiya partizanları isə heç də onlardan geri qalmırdı: "Müharibə dövründə sayı 400 mindən çox olan Belorusiya partizanları 1941-ci ilin iyunundan 1944-cü ilin iyuluna kimi 500 min alman faşist işğalçısını məhv etmiş, yaralamış və əsir götürmüşdülər. Düşmənin 948 qərargahı dağıdılmışdı, 11128 eşalonu, 34 zirehli qatarı, 305 təyyarəsi, 1355 tankı, 18700 avtomobili, 938 silah-sursat anbarı partladılmışdı. O da maraqlıdır ki, dünyada heç bir ölkə faşist işğalının ağırlığını, məşəqqətini Belarus xalqı qədər hiss etməmişdi. Eyni zamanda faşistlər də heç yerdə belə güclü, qarşısıalınmaz partizan hərəkatı ilə qarşılaşmamışdı." (səh.418-419).

Bəli, beləcə gəlib müharibənin yekununa, tarixi Qələbənin qazanıldığı məqama yaxınlaşırıq. Faşistlər Bakını, Moskvanı tuta bilmədi, qəhrəman şəhər Leninqradı 900 gün mühasirədə saxlasa da təslim edib müqavimətini qıra bilmədi. Amma müzəffər Sovet ordusu 1945-ci il aprelin 16-da Berlini, yəni alman faşistlərinin ilan yuvasını təslim və darmadağın etmək üçün olduqca irimiqyaslı əməliyyata başladı: "Sovet qoşunları tərəfindən həyata keçirilən Berlin əməliyyatında 2,5 mln. Insan, 41,6 min top və minamyot, 6250 tank və özüyeriyən artilleriya qurğusu, 7,5 min döyüş təyyarəsi iştirak edirdi. Alman-faşist komandanlığı da Berlinin müdafiəsini gücləndirmək üçün bütün tədbirləri görmüşdü. Təkcə Berlinin özündə 200-dən çox batalyon vardı. Şəhər qarnizonunun sayı 200 min nəfərdən çox idi. Sovet qoşunları bu əməliyyatın gedişində düşmənin 93-cü diviziyasını darmadağın etdi. 480 min alman əsgər və zabiti əsir alındı. Saysız-hesabsız hərbi texnika ələ keçirildi." (səh.263). Beləcə , aprelin 16-da başlayan genişmiqyaslı hücum əməliyyatı mayın 2-də Berlinin süqut edib diz çökməsi ilə nəticələndi, mayın 9-da isə tarixi Qələbə günü bütün dünyaya elan olundu. Bundan sonra Sovet rəhbərliyi Qələbənin yaratdığı sevinc əhvali-ruhiyyəsi içində iyunun 24-də Moskvanın Qızıl meydanında keçiriləcək Qələbə paradına hazırlaşmağa başladı. Nəhayət, gözlənilən məqam gəlib yetişdi. Bu, həqiqətən bəşər tarixinin ən əzəmətli və yaddaqalan paradlarından biri oldu: "Paradda 24 marşal, 249 general, 2536 zabit, 31.116 serjant və sıravi əsgər iştirak edirdi. Həmin gün Qızıl Meydandan 1850-dən artıq hər-



bi texnika keçdi." (səh.278). Həmin gün qalib döyüşçülər darmadağın edilmiş alman hissələrinin 200 bayraq və ştandartını əllərində əlcək daşıyırdılar. Qızıl Meydanı murdarlamasın deyə bu bayraqları xüsusi taxta lövhənin üstünə tulladılar və axşam əlcəklərlə birgə hamısına od vurub yandırdılar.

Beləcə, biz akademik Ziyad Səmədzadənin "Bakı nefti, Qələbənin açarı" kitabı barədə imkanımız daxilində söhbət açmağa çalışdıq. İndi də həmin kitabın Partiya Tarixi Arxivinin iclas salonunda keçirilən təqdimat mərasimində səslənmiş çıxışların bir qisminin mətnini dəyərli oxucularımıza təqdim edirik.

**16 Fevral 2017-ci ildə Siyasi Partiya arxivinin iclas salonunda akademik , millət vəkili Ziyad Səmədzadənin "Bakı nefti,Qələbənin açarı" kitabının təqdimat mərasimi:**

Millət Vəkili Fuad Muradov: - Ziyad müəllimin bizə təqdim olunan bu monumental əsəri bu gün 25 yaşı olan gənclər üçün xüsusilə maraqlıdır, çünki bu yaşa qədər olan gənclərin hər biri bizim azad müstəqil dövlətimizdə anadan olublar. Bu gün Baybakov kimilər bizim gəncləri tanımaya da bilərlər. Amma bu da tarixi faktdır ki,Yusif Məmmədəliyev kimi görkəmli Azərbaycan alimi yüksək oktanlı benzini kəşf və istehsal etməklə bütün dünyada cərəyan edən hadisələrin gedişinə əsaslı şəkildə təsir edə bildi. Bütün bu maraqlı hadisələr deputat həmkarım, hörmətli akademikimiz Ziyad Səmədzadənin Bakı neftinin şərəfli tarixinə həsr olunmuş bu maraqlı kitabında əks olunub. Bu çətin və maraqlı fəaliyyət sahəsində mən ona yeni, daha parlaq sənət sevincləri arzu edirəm.

**Akademik Xoşbəxt Yusifzadə:** - Millət Vəkili Fəzail İbrahimlinin dərin məzmunlu, parlaq çıxışından sonra danışmaq, sanballı, tutarlı söz demək nə qədər çətin olsa da qeyd etməliyəm ki, Böyük Vətən müharibəsini görənlərdən biri də mənəm. Düzdür, müharibədə iştirak etməmişəm, amma o qanlı cahan savaşı başlayanda 11 yaşım olduğu üçün hərbin doğurduğu dəhşətləri bu gün də çox yaxşı xatırlayıram. Pirşağıda qara tutun yetişən vaxtı idi. Anam mənə ağ köynək almışdı, mən də ağ köynəyi geyinib qara tut yeməyə getmişdim. Doyunca tut yeyib qurtarandan sonra baxdım ki, köynəyimdə sağ-salamat bir yer qalmayıb. Evə qayıdanda yol boyu düşünürdüm ki, köynək bu günə düşdüyü üçün indi anam məni öldürəcək. Amma evə çatanda gözləmədiyim, ağlıma gətirmədiyim bir mənzərə ilə qarşılaşdım. Böyüklərin üzü buludlu payız səması kimi tutulub qaralmışdı, arvad-uşaq isə bir-birinə qarışıb ağlaşırdı. Bu mənzərənin özü açıq -aydın göstərirdi ki, başlayan müharibə heç də insanlara yaxşı şeylər vəd etmirdi. Rayon mərkəzindən gələn katib həmin gün camaatı kluba yığıb çıxış elədi. Dedi ki, almanlar üstümüzə hücum eləyiblər. Özü də xaincəsinə, xəbərətərsiz hücum ediblər. Amma inanın ki, bu müharibə heç də uzun çəkməyəcək. Biz ən tez bir zamanda ya onları məğlub edəcək, ya da məhv edəcəyik. Düzdür, bu müddət qısa olmadı, yəni dörd ildən çox davam elədi, hər halda tarix özü də şahid oldu ki, alman faşistlərinə ən layiqli cavab verən də, onları yerində oturdan da biz olduq. Bu layiqli cavabın verilməsində isə Azərbaycanın, o cümlədən də Bakı neftinin xüsusi rolu oldu. 600 mindən artıq soydaşımız tarix boyu misli görünməmiş bu qanlı savaşda iştirak etdi ki, onların da yarıdan çoxu şəhid oldu. Arxada gedən intensiv işlər həm də ön cəbhənin taleyini həll etmiş oldu. Düzdür, o zaman mən balaca olduğuma görə neft hasilatı sahəsində gedən prosesləri tam dərk edə bilmirim, amma insanların bir ailə kimi eyni amala, məqsədə qulluq etməsi, hər gün səhər saat 5-dən durub gecə düşənə kimi intensiv çalışması, böyük Qələbə naminə hər cürə çətinliyə sinə gərməsi bu günə kimi yaddaşımdan silinməyib. Neft istehsalına gəldikdə isə qeyd etməliyəm ki,1900-cu ildə dünya neftinin yarıdan çoxu məhz Azərbaycanda istehsal olunurdu. Düzdür, kimlərsə, haçansa neftin bizə problem yaratdığını, baş ağrısı gətirdiyini iddia edirlər, amma bütün bunlarla bahəm mən xüsusi şəkildə vurğulamaq istəyirəm ki, neft həm də ən çətin, ən kritik məqamlarda bizim xilaskarımız olub və 2-ci Dünya müharibəsində həlledici rol oynayıb. Müharibə başlamışdı, cavanların demək olar ki, hamısı cəbhəyə getmişdi, neft çıxarmağa isə adam lazım idi. Arxada qocalarla qadınlar qalmışdı. Mən neft sahəsində işləməyə başlayanda orda Sofiya Borisovna Qluşenko adında bir xanım mədən müdiri vəzifəsində çalışırdı. O,tez-tez bizə müharibə illərinin çətinlikləri barədə danışırdı. Bizim Azərbaycanımız müstəqillik dövrünə qədəm qoyanda da ümumi vəziyyətimiz çox ağır idi. Belə çətin bir vaxtda dahi Heydər Əliyevin hakimiyyət başına gəlməsi ölkənin taleyində yaxşılığa doğru həlledici rol oynadı. Belə bir məqamda biz yalnız neft amilinin yaratdığı maddi imkanlar sayəsində ölkəni bürümüş dərin iqtisadi, sosial, hərbi böhrandan xilas edə bilərdik. Bu cür mürəkkəb şəraitdə o,ən düzgün yol tapmağı və ölkəni hərtərəfli şəkildə böhrandan çıxarmağı bacardı. O zaman Azəri, Çıraq, Günəşli kimi zəngin neft yataqları yenicə kəşf olunmuşdu. Amma o vaxt bizim o dərinlikdə işləməyə nə yetərincə vəsaitimiz, nə də texnikamız vardı. Belə bir vaxtda xarici şirkətləri ölkəyə dəvət etmək düzgün çıxış yolu idi. Sonra görülən çətin işlərin indiki fərəhli nəticələri isə bu gün hər kəsin gözü önündədir. Bu gün mədəniyyət, səhiyyə, iqtisadiyyat, tikinti, təhsil sahəsində qazanılan böyük uğurlar, həyata keçirilən köklü islahatlar bilavasitə neft amili ilə bağlıdır. Son on-on beş ildə Azərbaycanda olmayan soydaşlarımız indi vətənə qayıdanda hər sahədə köklü irəliləyişləri görüb yaxşı mənada heyrətə düşürlər. Bu əsaslı irəliləyişlər həm paytaxtda, həm də bölgələrdə özünü aydın göstərir. Mən bir neftçi kimi xüsusi qürur hissi ilə qeyd etməliyəm ki, qazanılan bütün uğurlarda bizim neftçilərin böyük rolu var. Son illər ərzində bizim neftçilərin sərgilədiyi qəhrəmanlığı mən hardasa onların Böyük Vətən müharibəsi illərində olan fədakarlığı ilə müqayisə edərdim. Meşələr qələm, dənizlər mürəkkəb olsa da ölkəmizdə görülən işlərin miqyasını olduğu kimi əks etdirmək qeyri-mümkündür. Əziz dostum Ziyad müəllimin bu gün təqdimatına toplaşdığımız dəyərli kitabının əsas mahiyyəti də məhz neft amilinin xalqımızın tarixi taleyində oynadığı mühüm rolu qeyd etməkdən ibarətdir. Siz də bu kitabı diqqətlə oxuyub bu sahədə daha böyük bilgilər əldə edəcəksiniz. Gənclərimizin tarixi inkişafımızda oynadığı müsbət rol da bu kitabda yerli-yataqlı şərh olunub. Çox zaman özüm də şahid olmuşam ki, bəzi yaşlı insanlar gənclərimizə tənqidi formada yanaşmaqla onların inkişafına, tərəqqisinə mane olmağa çalışıblar. Bir dəfə əlimə 1871-ci ildə çap olunmuş bir kitab düşdü və mən bu maraqlı kitabı könül xoşluğu ilə oxudum.O kitabda da qeyd olunub ki, indiki cavanlar bizə oxşamır. O kitabla tanışlıqdan sonra mən özüm də cavanlardan gileylənməyi tərgitdim.

*(Davamı var)*



*Bayram AFURCALI,*
*publisist-fotoqraf*